# Təhsildə uğurlar ürəkaçandır



Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə həyata keçirdiyi düşünülmüş və uzaqgörən daxili və xarici siyasət, iqtisadi sahədə aparılan məqsədyönlü və ardıcıl islahatlar müstəqil Azərbaycanı siyasi və iqtisadi baxımdan sabit, davamlı inkişaf edən dövlət, beynəlxalq aləmdə etibarlı tərəfdaş, regionda lider ölkə kimi tanıtmışdır.

Son on ildə aparılan sosialyönümlü islahatlar nəticəsində müasir tələblərə cavab verən infrastruktur layihələri həyata keçirilmiş, yüksək standartlara cavab verən təhsil, səhiyyə, mədəniyyət və idman obyektləri inşa edilib istifadəyə verilmişdir. Bu nailiyyətlər ölkədə sosial sferanın, o cümlədən təhsil sahəsində əsaslı islahatların aparılmasına təkan vermiş, onun davamlı inkişafına stimul yaratmışdır.

Bu baxımdan ölkəmizin İnkişaf Konsepsiyasından irəli gələn və mühüm əhəmiyyət kəsb edən sənədlərdən biri — "Azərbaycan təhsilinin inkişafı üzrə Dövlət Strategiyası" olmuşdur. Bu sənəd təhsillə bağlı bütün subyektləri və fəaliyyət sahələrini əhatə edir. Bu əhatəlilik, həmçinin, Azərbaycanın gələcək inkişafının davamlı xarakter alması üçün peşəkar bilik və bacarıqlara yiyələnən və rəqabətədavamlı insan resurslarının yetişdirilməsi missiyasına xidmət edir, Azərbaycan təhsilinin yeni keyfiyyət mərhələsinə keçidi istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Dövlət Strategiyasında təhsilin keyfiyyətinin yaxşılaşdırılması, təhsili idarəetmə sisteminin yenidən qurulması, kadr hazırlığının gücləndirilməsi, müəllim peşəsinin nüfuzunun artırılması, onun karyera inkişafı və fəaliyyətinin stimullaşdırılması, müasir təfəkkürlü Azərbaycan vətəndaşının yetişdirilməsi əsas hədəflər kimi götürülür. Azərbaycan müəllimlərinin XIV qurultayında bu məsələ ilə əlaqədar keçiriləcək tədbirlərdən, qarşıda duran vəzifələrdən ətraflı bəhs olunmuşdur.

Həmsöhbətimiz Ağsu Rayon Təhsil Şöbəsinin müdiri, bacarıqlı təhsil işçisi Tahir Xasıdır. Dərs ilinin başlanması ilə əlaqədar qayğılarının çoxalmasına baxmayaraq, o, görülmüş işlərlə bağlı oxucularımıza ötən dərs ilində əldə olunan uğurlarla bağlı ətraflı məlumat verərək bildirdi ki, ümumi təhsilin məzmununun yenidən qurulmasına böyük əhəmiyyət verildiyi və daim diqqət mərkəzində saxlanıldığı 2014-2015-ci dərs ilində rayonumuzda 68 ümumtəhsil məktəbi, o cümlədən 35 tam orta, 16 ümumi orta, 17 ibtidai məktəb fəaliyyət göstərmişdir. 68 ümumtəhsil məktəbində 8433 nəfər şagird təhsilə cəlb olunmuşdur. Onların təlim-tərbiyəsi ilə 1066 nəfər müəllim məşğul olmuşdur ki, bunların da 742 nəfəri ali, 324 nəfəri isə pedaqoji orta təhsilli olmuşdur.

Keçən dərs ilində 8192 nəfər şagird dərs ilinin sonunda sinifdən-sinfə keçmiş və ya məktəbi bitirmişdir. 1762 nəfər şagird dərs ilini əla qiymətlərlə, 2882 nəfər şagird isə yaxşı və əla qiymətlərlə dərs ilini başa vurub yuxarı sinfə keçmişlər.

Azərbaycan Respublikası Prezidentinin "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanına və müvafiq normativ sənədlərin tələblərinə uyğun 23 nəfər məktəbyaşlı sağlamlıq imkanı məhdud uşaq evdə fərdi təhsilə cəlb olunmuşdur.

TQDK tərəfindən son iki ildə mərkəzləşdirilmiş qaydada aparılmış IX və XI siniflər üzrə buraxılış imtahanlarının nəticəsinin müqayisəli təhlili onu deməyə imkan verir ki, əvvəlki dərs ilinə nisbətən 2014-2015-ci dərs ilində IX siniflərdə şagirdlərin bilik səviyyəsi yaxşılaşmışdır.

"Azərbaycan təhsilinin inkişafı üzrə Dövlət Strategiyası"nın birinci istiqaməti səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılmasını və təhsilin bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir. Hörmətli nazirimiz Mikayıl Cabbarovun Azərbaycan müəllimlərinin XIV qurultayında dediyi kimi, ibtidai təhsil səviyyəsində məntiqi düşüncə, ümumi savad və həyati vərdişlərin öyrədilməsi əsas xətt kimi qoyulmalı, ana dilinin və riyaziyyatın tədrisinə böyük önəm verilməlidir.

Ağsu rayonundan 2015-ci ildə ali məktəbə qəbul üçün sənəd vermiş 273 nəfər məzunun 109 nəfəri qəbul imtahanlarında müsabiqə balından çox bal toplamışlar. Onların 102 nəfəri tələbə adını qazanmışdır.

Məzunlarının ali məktəbə qəbulu ilə əlaqədar şəhər 1 N-li məktəb-liseyin, şəhər 2, 3, 5 N-li tam orta, Çiyni, Gəgəli, Pirhəsənli kənd tam orta məktəblərin nəticələri daha yaxşı olmuşdur.

"Gələcək bilikli, elmli, istedadlı insanların çiyinləri üstündə qurulur" — ümummilli liderimiz Heydər Əliyevin proqram xarakterli bu müddəasına əsasən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təsdiq etdiyi "Xüsusi istedada malik uşaqların yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı"keyfiyyətli təhsil uğrunda sağlam rəqabətin gücləndirilməsinə ciddi təkan vermişdir.

Proqram çərçivəsində Təhsil Nazirliyinin 04 iyul 2007-ci il tarixli, 814 N-li əmri ilə Ağsu şəhər A.Nadirov adına 1 N-li tam orta məktəb məktəb-liseyə çevrilmiş, burada VIII sinifdən başlayaraq təbiət fənləri təmayüllü lisey sinifləri fəaliyyət göstərir. Fəaliyyət göstərdiyi müddətdə lisey siniflərini bitirmiş 79 nəfər məzunun 37 nəfəri məktəbi bitirdiyi ildə müxtəlif ali məktəblərə qəbul olunmuşlar. Onların 9 nəfəri 500-dən çox, 7 nəfəri 600-dən çox, 1 nəfəri isə 700 balla ali məktəbə daxil olmuşdur. Bir nəfər isə təhsilini "Qızıl" medalla başa vurmuşdur.



2014-2015-ci dərs ilində Muradlı, Dilman və Keçdiməz kəndlərində hər biri 80 yerlik yeni məktəb binası tikilib istifadəyə verilmişdir. Ümumiyyətlə, yeni dərs ilində 6 min nəfərdən çox şagird və ya bütün şagird kontingentinin 65 faizindən çoxu yeni tikilmiş və ya əsaslı təmir olunmuş məktəblərdə təhsil alacaqdır. Bunun nəticəsidir ki, rayonun 68 ümumtəhsil məktəbinin 62-də iki növbəlilik ləğv edilmiş, 52 məktəb tam, 16 məktəb qismən 5 günlük tədris həftəsinə keçməklə şagirdlər üçün əlverişli təlim şəraiti yaradılmışdır.

"Ümumtəhsil məktəblərinin İKT ilə təminatı Proqramı" ümumi təhsilin inkişafında tarixi nailiyyət kimi qiymətləndirilməlidir. Bu istiqamətdə mühüm bir məsələ - müəllimin hazırlığı məsələsi də gündəmdə dayanan məsələlərdən olmalıdır.

Bu gün təhsil işçilərinin qarşısında duran vacib məsələlərdən biri də məktəb və valideyn münasibətlərinin yenidən qurulmasıdır. Məlum olduğu kimi, məktəb və valideyn əlaqələrinin qurulması pedaqoji məsələ kimi həmişə aktual olmuşdur. Lakin informasiyalı cəmiyyətin yarandığı, məlumatların arealının genişləndiyi bir zamanda təhsilin məzmununu yeniləşdirmək, təşkilini daha səmərəli qurmaq üçün məktəbin fəaliyyət imkanlarının genişlənməsinə yardım göstərən qüvvələrdən istifadə olunmasına ehtiyac vardır.

"Məktəb elə bir məkandır ki, burada biz uşaqlarımızın mənəviyyatının əsasını qoyuruq. Məktəbdə hökm sürən psixoloji atmosfer övladlarımızın gələcək həyat yoluna, mənəvi dəyərlərinə və əqidələrinə, milli identifikasiyasına və vətəndaşlıq hisslərinə bilavasitə təsir göstərir.

Mən bu məsələdə valideynlərin də rolunu qeyd etmək istərdim. Təhsil sahəsində nazirliyin və ya təhsil müəssisəsinin təkbaşına səyləri ilə vəziyyətin düzəldilməsinə inanmaq sadəlövlük olardı. Bu eyni zamanda hər bir ailənin və bütövlükdə cəmiyyətin ümumi işidir. Bizim mövqeyimiz ondan ibarətdir ki, məktəblərin idarə olunmasında və təhsil ocaqlarında müsbət atmosferin yaradılmasında valideynlərin rolu artmalı, bunun üçün islahatlar aparılmalıdır".

Ağsu rayonunda çalışan təhsil işçiləri də öz işlərini məhz bu istiqamətdə qurmağa səy göstərir və yeni-yeni uğurlara imza atmaq naminə qüvvə və bacarıqlarını əsirgəmir.

**İlham PƏNAHOV,**
**"Respublika".**